UNEC, İl 13, Cild 13, yanvar – mart, 2025, səh. 8-19
UNEC, Year 13, Volume 13, January – March 2025, pp. 8-19

# ARTIMIN INNOVATİV XARAKTERİ VƏ MİLLİ İQTİSADİYYATIN YENİDƏN SƏNAYELƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

*Daxil olub: 30 yanvar 2025-ci il*
*Qəbul olunub: 14 fevral 2025-ci il*

*Received: 30 January 2025*
*Accepted: 14 February 2025*

***Aysel Quliyeva***
*i.ü.f.d., müəllim, UNEC*
*aquliyeva5@gmail.com*
*https://orcid.org/0009-0000-8057-9419*

**Xülasə**

Tədqiqatın məqsədi bu gün sənayenin və bütövlükdə iqtisadiyyatın yenidən sənayeləşdirilməsi ilə bağlı Azərbaycan dövlətinin və cəmiyyətinin qarşısında duran vəzifələrin təhlil edilməsidir ki, onsuz bugünkü şəraitdə davamlı sosial-iqtisadi artımın təmin edilməsi mümkün deyil. Tədqiqat zamanı dialektik, konkret tarixi, sistemli analiz və məntiqi ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Tədqiqatın məhdudluğu son onilliklərdə qlobal yenidən sənayeləşdirmə nəticəsində yaranan problemlərin nəzərdən keçirilməsinin və onun aradan qaldırılması yollarının müəyyən edilməsinin iqtisadi nəzəriyyəyə dair mövcud əsərlərin əksəriyyətində davamlı olaraq mövcud olmaması hesab edilə bilər. Tədqiqatın nəticəsində beynəlxalq rəqabətin kəskinləşməsi və dövlətin rəqabət qabiliyyətli üstünlüklərin əldə edilməsi zərurəti kontekstində elmi-texniki tərəqqinin ən son nailiyyətləri əsasında milli iqtisadiyyatın yenidən sənayeləşdirilməsi imkanları təhlil edilib. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, o, Azərbaycan dövlətinin ümumi iqtisadi siyasəti çərçivəsində sənaye istehsalının və ilk növbədə emal sənayesinin innovativ əsaslarla dirçəldilməsi və daha da inkişaf etdirilməsi üçün konkret tədbirlərin işlənib hazırlanmasında istifadə oluna bilər. Tədqiqatın elmi yeniliyi və orijinallığı ümumi sosial-iqtisadi inkişaf kontekstində innovativ əsaslarla sənaye istehsalının və xüsusilə də emal sənayesinin bərpası üçün müasir dövlətin mümkün fəaliyyət istiqamətlərinin müəyyən edilməsindədir.

***Açar sözlər:*** *emal sənayesinin tənəzzülü, iqtisadiyyatın yenidən sənayeləşdirilməsinin cari vəzifələri, innovativ layihələrin həyata keçirilməsi.*

# INNOVATION CHARACTER OF THE GROWTH AND SOME QUESTIONS OF RE-INDUSTRIALIZATION OF NATIONAL ECONOMY

***Aysel Guliyeva***
*Ph.D., Lecturer, UNEC*

## Abstract
The purpose of the study is analysis of the tasks that today stay in front of Azerbaijani state and our society for re-industrialization of industry and economy, and without such re-industrialization it's impossible to provide stable socio-economic growth. The study was conducted basing on such research methods as dialectical, concrete-historical, methods of systematic analysis and logical conclusion. The study's limitations can be considered as remaining absence of examining of the problems caused by the global de-industrialization of last decades and defining the ways of its overcoming in most existing studies in economic theory. The result of the study is that there were analyzed possibilities of re-industrialization of national economy at the base of the newest achievements of scientific & technical progress at the context of intensifying of international competition and necessity of receiving competitive advantages by national state. The practical importance of the study is that it can be used in working at concrete measures within the framework of general economic policy of Azerbaijani state for providing full rebirth and further development of industrial production and first all manufactured industry at the innovation base. The scientific novelty and originality of the study are in defining possible directions of activities of modern state for restoring the industrial production and particularly the branches of manufactured industry at the context of general socio-economic development at the innovation base.

***Keywords:*** *decline of manufactured industry, actual tasks of reindustrialization of national economy, realization of innovation products.*

## ИННОВАЦИОННЫЙ ХАРАКТЕР РОСТА И ВОПРОСЫ РЕИНДУСТРИАЛИЗАЦИИ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ

***Айсель Гулиева***
*д.ф.н.э., преподаватель UNEC*

## Резюме
Целью исследования является анализ тех задач, которые сегодня стоят перед Азербайджанским государством и обществом по реиндустриализации промышленности и экономики в целом, без которой в сегодняшних условиях невозможно обеспечение устойчивого социально-экономического роста. В ходе исследования применялись такие методы, как диалектический, конкретно-исторический, методы систематического анализа и логического обобщения.

Ограничением исследования может считаться сохраняющееся отсутствие в большинстве имеющихся работ по экономической теории рассмотрения проблем, вызванных глобальной деиндустриализацией последних десятилетий, и определения путей ее преодоления. В результате исследования были проанализированы возможности реиндустриализации национальной экономики на базе новейших достижений научно-технического прогресса в контексте обострения международной конкуренции и необходимости получения государством конкурентных преимуществ. Практическое значение исследования состоит в том, что оно может быть использовано при разработке конкретных мер в рамках общей экономической политики Азербайджанского государства по обеспечению полного возрождения и дальнейшего развития промышленного производства и, прежде всего, обрабатывающей промышленности на инновационной основе. Научная новизна и оригинальность исследования заключаются в определении возможных направлений действий современного государства по восстановлению промышленного производства и особенно отраслей обрабатывающей промышленности в контексте общего социально-экономического развития на инновационной основе.

***Ключевые слова:*** *упадок обрабатывающей промышленности, актуальные задачи реиндустриализации экономики, внедрение инновационных разработок.*

## Giriş

Son illərdə dünyada baş verən sosial-iqtisadi və siyasi proseslərin davamlı qeyri-sabitliyi şəraitində istər postsovet məkanındakı bir sıra dövlətlərdə, istərsə də inkişaf etmiş ölkələrdə perspektivdə fasiləsiz iqtisadi inkişafın təmin edilməsi üçün zəruri şərtlərdən və eyni zamanda ən mühüm amillərdən biri kimi iqtisadiyyatların *"yeni sənayeləşdirilməsi"* və ya *yenidən sənayeləşdirilməsi* haqqında danışmağa başlayıblar. Ekspertlərin və siyasi icmaların nümayəndələrinin bu marağı bir çox hallarda dünyanın həm yüksək dərəcədə inkişaf etmiş, həm də inkişaf etməkdə olan onlarca ölkəsində sənayenin bir sıra, o cümlədən aparıcı sahələrində yaşanmış və hələ də davam edən tənəzzüllə bağlıdır.

## Yenidən sənayeləşdirilmə iqtisadi artımın təmin edilməsinin əsası kimi

Bu tənəzzül öz növbəsində aşağıdakı səbəblərdən irəli gəlirdi:

- sərmayələrin əvəzinin tezliklə çıxacağını və maksimum gəlir gətirəcəyini gözləyən investorların öz kapitallarını iqtisadiyyatın real sektor sahələrinin ziyanına

olaraq "yeni iqtisadiyyat"ın "dəbdə olan" sənaye sahələrinə yönəltmək istəklərinin nəticəsi kimi, bir çox milli iqtisadiyyatlarda ötən əsrin 80-ci illərinin əvvəllərində - 90-cı illərində başlayan və illər boyu davam etmiş investisiya əyintiləri;

- həm iqtisadi nəzəriyyədə, həm də praktikada dövlətin maliyyə-iqtisadi siyasətinin prioritetləri kimi sənaye istehsalının əsas sahələrinin *post-sənaye xidmətləri* sektoru adlanan sahələrlə (telekommunikasiya və kompüter təminatı, kinoteatr və xüsusilə televiziya sənayesi, bütövlükdə əyləncə sənayesi, müxtəlif konsaltinq xidmətləri və s.) əvəz edilməsi;

- bütün bunlardan əlavə, inkişaf etmiş ölkələrin çoxunda son 10-15 ildə iqtisadiyyatda karbohidrogen mənşəli yanacağın istifadəsindən imtina etmək üçün lazımınca götür-qoy edilməmiş kəskin tədbirlərin həyata keçirilməsi nəticəsində əhəmiyyətli sayda sənaye sahələrinin inkişafında geriləmə, bəzi hallarda isə istehsal gücünün və buraxılan məhsulun həcminin birbaşa azalması.

Belə bir şəraitdə bəzi ekspertlər büövlükdə dünya təsərrüfat sistemində *"qlobal yenidən sənayeləşdirmə"* təhlükəsindən danışmağa başladılar. Yuxarıda sadalanan mənfi amillərə son illərdə əlavə olunmuş təbii-iqlim xarakterli kəskin problemlər planetin demək olar ki, bütün ölkələrində böyük maddi itkilərə, hətta insan itkilərinə səbəb olur, bütövlükdə iqtisadi inkişafın qeyri-sabitliyinə şərait yaradır və beləliklə, sənayenin inkişafı perspektivlərini birbaşa təhdid edir.

Qlobal münaqişələrin kəskinləşməsi, siyasi və diplomatik fikir ayrılıqlarının iqtisadi sferaya keçməsi sənaye istehsalının vəziyyətinə və perspektivlərinə son dərəcə mənfi təsir göstərir. Ayrı-ayrı ölkələr və dövlət qrupları (birlikləri) arasında rəqabətin kəskinləşməsi bu formalarda təzahür edir:

- bilavasitə xarici iqtisadi əlaqələrin məhdudlaşdırılmasına yönəlmiş tədbirlər, məsələn, dünya miqyasında ticarətin və beynəlxalq iqtisadi əlaqələrin digər növlərinin inkişafının ləngiməsinə səbəb olan birtərəfli sanksiyalar və bilavasitə qadağanedici xarakter daşıyan digər hərəkətlər;

- beynəlxalq gərginliyin artması şəraitində qaçılmaz olan faiz dərəcələrinin artmasına təkan vermək və ondan maliyyə rəqabəti vasitəsi kimi istifadə etmək;

- əsas xammal növlərinin qiymətlərinin dəyişməsi amilindən rəqiblərə təzyiq vasitəsi kimi istifadə etmək;

- təchizat zəncirinin mürəkkəbləşməsinə və müvafiq olaraq sənaye məhsulları istehsalının azalmasına gətirib çıxaran, nəqliyyat və logistika marşrutlarının qəsdən uzadılmasına səbəb olan tədbirlər.

Son onilliklərdə qlobal iqtisadiyyatda və beynəlxalq siyasətdə baş verən və yuxarıda qeyd olunan bütün proseslər ölkəmizdəki daxili iqtisadi vəziyyətə təsir etməyə bilməz.

Artıq sadalanan amillərə əlavə olaraq, nəzərə almaq lazımdır ki, SSRİ-nin süqutundan sonra Azərbaycan milli dövlətinin həyata keçirdiyi sosial-iqtisadi siyasətin bütün məsuliyyətinə baxmayaraq, ölkəmiz bir vaxtlar vahid iqtisadi məkanın süqutu ilə bilavasitə bağlı olan həmin proseslərin mənfi təsirindən tam xilas ola bilmədi. Keçmiş Sovet İttifaqı ölkələrini bürümüş dərin transformasiya böhranının təzahürlərindən biri də suveren dövlətlərə çevrilmiş keçmiş sovet respublikalarının müəssisələri arasında onilliklər ərzində yaradılmış təkcə nəqliyyat və logistika zəncirlərinin deyil, həm də istehsal və kooperasiya zəncirlərinin dağılması olmuşdur.

Bu, təbii olaraq, müvafiq avadanlıqların, detalların və ehtiyat hissələrinin tədarükünün qarşılıqlı dayandırılmasına səbəb oldu, bundan əlavə, bir çox hallarda lazımi xammalın tədarükünün qiymətində artım müşahidə edildi. Bütün bunların nəticəsi istehsalın kütləvi şəkildə azalması, bir sıra hallarda isə müəssisələrin tamamilə bağlanması oldu. Eyni zamanda bəzi müəssisələr, o cümlədən gələcəkdə gəlir əldə etmək məqsədilə istifadə etməyin mümkünlüyü baxımından perspektivli olanlar, dərhal mənfəət əldə etmək üçün, necə deyərlər, hərraca çıxarılaraq, çox vaxt hədsiz ucuz qiymətə satılırdı.

İlk növbədə sənayenin əsas sahələrinə - *maşınqayırma*, eləcə də yüngül sənaye və yeyinti sənayesi kimi qarşılıqlı tədarükdən ən çox asılı olan sahələrə zərbə dəydi. Böhran vəziyyətinin ümumi inkişafı bir çox sənaye müəssisələrinin işçilərinin, ilk növbədə kortəbii şəkildə formalaşan və bir çox hallarda tənzimlənməyən bazar iqtisadiyyatı şəraitində əvvəlki iş yerini tərk etməyə və yeni iş yeri axtarmağa məcbur olmuş mühəndislərin və yüksəkixtisaslı fəhlə peşələri nümayəndələrinin vəziyyətinə təsir göstərməyə bilməzdi. Görünür, istehsalatda mütəxəssislər korpusunun əhəmiyyətli dərəcədə ixtisarı bir çox ölkələrdə *yenidən sənayeləşdirmə* proseslərini gücləndirən əlavə amil olmuş, bu isə sırf iqtisadi nəticələrlə yanaşı, həm də dərin sosial nəticələrə gətirib çıxarmışdır.

Müvafiq olaraq, bir sıra postsovet dövlətlərində emal sənayesinin tənəzzülü, öz növbəsində, qonşuları ilə çoxsaylı kooperativ əlaqələri ilə bağlı olan ölkəmizdə də sənayenin vəziyyətinə təsir etməyə bilməzdi. Azərbaycanın milli sənayesinin bərpası və sonrakı inkişafı prosesi xarici təsirlərin davam etdiyi mürəkkəb şəraitdə baş verirdi. Bu, onun xarakterinə və artım sürətinə bilavasitə təsir etmişdir. Belə ki, əgər 2005-ci ilin yekunlarına görə sənaye məhsulları istehsalının artımı 33,5 faiz təşkil edirdisə, bu əsrin birinci onilliyinin sonunda həmin göstərici kəskin surətdə azalaraq, 2010-cu ildə

2,6 faizə bərabər olmuşdur. Bununla belə, ikinci onilliyin başlanğıcı artıq sənaye istehsalının həcminin mütləq azalması ilə əlamətdar oldu. 2011-ci ilin yekunlarına görə azalma 5,0 faiz təşkil edib, 2012-ci ildə istehsal 2,3 faiz azalıb [1,s.24].

Göründüyü kimi, demək olar ki, bütün dünya iqtisadiyyatına təsir edən qlobal maliyyə-iqtisadi böhran sənayedəki işlərin vəziyyətinə ən çox mənfi təsir göstərmişdir. 2008-2009-cu illərdə yaranan böhran növbəti bir neçə il ərzində ölkələrin və regionların böyük əksəriyyətinə yayıldı. Bunun məntiqi nəticəsi, digər məsələlərlə yanaşı, bir sıra milli iqtisadiyyatlarda, o cümlədən iqtisadiyyatları əslində 90-cı illərdəki transfer-masiya böhranından sonra yenicə formalaşmağa başlayan Azərbaycanın aparıcı ticarət-iqtisadi tərəfdaşlarında sənaye istehsalının bir çox sahələrinin məhsullarına tələbatın kəskin azalması oldu. Bu yeni zərbə, öz növbəsində, ölkəmizin sənayesinin sonrakı inkişaf imkanlarına və artım sürətinə təsir etməyə bilməzdi.

Ümumiyyətlə, iddia etmək olar ki, bu əsrin birinci onilliyinin sonunda baş verən qlobal böhranın nəticələri demək olar ki, bütün ikinci onillik ərzində – elə koronavirus pandemiyasının ən kəskin dövrünə qədər bir çox ölkələrin iqtisadiyyatı tərəfindən bu və ya digər dərəcədə hiss edilmişdir. Ölkəmizdə bu, xüsusən, bütöv-lükdə iqtisadi artımın qeyri-sabit xarakterində, xüsusilə də sənaye sektorunda ifadə olunurdu. Belə ki, məsələn, 2015-ci ildə ÜDM 1,1 faiz artıbsa, növbəti ildə, yəni 2016-cı ildə artıq 3,1 faiz mütləq azalma nümayiş etdirib. 2017-ci ilin yekunlarına görə, ÜDM sıfıra yaxın – 0,2 faiz artım göstərib.

Azərbaycan sənayesinə gəlincə, 2015-ci ildə ötən illə müqayisədə 2,4 faiz artmış sənaye istehsalının həcmi artıq növbəti - 2016-cı ildə 0,5 faiz azalıb, 2017-ci ilin sonuna isə 3,4 faiz azalma göstərib [1,s.25]. Sonrakı iki ildə, yəni birbaşa "*COVID"dən əvvəlki* dövrdə vəziyyət bir qədər yaxşılaşdı və 2018-2019-cu ilin yekunlarına görə, sənaye müvafiq olaraq 1,5 faiz və 1,8 faiz (sabit qiymətlərlə) artım göstərdi. *"COVID"li* 2020-ci ildə sənaye istehsalının həcmi 4,0 faiz azalıb [2,s.34].

Sonrakı illərdə yaranmış vəziyyəti təhlil edərək demək olar ki, koronavirus pande-miyasının nəticələri ötən əsrin 90-cı illərinin əvvəllərində baş verən trans-formasiya böhranından və 2008-2009-cu illərin qlobal iqtisadi böhranından sonra Azərbaycan sənayesinin bərpası prosesinin tam başa çatmaması ilə bağlı çətinlikləri daha da gücləndirmişdir.

Belə ki, əgər 2021-ci ilin yekunlarına görə sənayedə bərpa artımı 5,0 faiz təşkil edibsə, bu da iqtisadiyyatın qanunlarına görə tamamilə təbiidir, artıq növbəti 2022-ci ildə müsbət artım dinamikası dəyişdi və istehsalda 1,1 faiz azalma qeydə alındı.

2023-cü ilin rəsmi məlumatına görə, sənaye istehsalında azalma davam edərək 0,8 faiz təşkil edib [3,s.25].

Yuxarıda qeyd edilənlərə əsasən bu nəticələri çıxara bilərik:

- *birincisi*, Azərbaycan sənayesinin vəziyyəti və onun artım templəri bütövlükdə iqtisadiyyatın artım sürətindən və onun sabitlik dərəcəsindən birbaşa olmasa da, əhəmiyyətli dərəcədə asılıdır;
- *ikincisi*, milli iqtisadiyyatın, xüsusən sənaye sektorunun inkişafı bundan sonra da müxtəlif qlobal proseslərin, o cümlədən açıq-aydın böhran xarakterli neqativ proseslərin təsirinin davam etməsi, bəlkə də artması şəraitində cərəyan edəcək;
- *üçüncüsü*, belə şəraitdə həqiqətən davamlı artımın təmin edilməsi o şərtlə mümkündür ki, ölkədə ilk növbədə emal sənayesi müəssisələrində istehsal olunan, tələbat olan və beynəlxalq bazarlarda rəqabətə davam gətirə bilən innovativ məhsullar olsun;
- *dördüncü*, sənayenin innovativ əsaslarla *modernləşdirilməsi* olmadan belə məhsulların yaradılması və istehsalına nail olmaq mümkün deyil.

Sənayenin modernləşdirilməsinə gəlincə, son illərdə hətta “post-sənaye” iqtisadiyyatının ən qızğın tərəfdarları da yəqin ediblər ki, sənaye sektoruna aid sahələr yeni, *modernləşdirilmiş* əsasda daha da inkişaf etdirilmədən, hər hansı “post-sənaye” ehtiyacları üçün hər hansı hazır məhsul istehsal etmək sadəcə mümkün olmayacaq. İqtisadi artımın dayanıqlı xarakterinin təmin edilməsi və xüsusən milli sənayenin gücləndirilməsi üçün beynəlxalq bazar amilinin və ümumiyyətlə, beynəlxalq iqtisadi əməkdaşlığın əhəmiyyəti iqtisadi nəzəriyyədə çoxdan məlumdur. Müasir şəraitdə qlobal iqtisadi inkişafın dialektikası, məsələn, bunda ifadə olunur ki, qloballaşma prosesləri sürətlənə və ya ləngiyə bilər, yeni formalar kəsb edə bilər, lakin bu və ya digər şəkildə davam edir. Bu səbəbdən, hər bir dövlətin iqtisadi inkişafında xarici amilin əhəmiyyətinin artması labüddür.

Yuxarıda qeyd etdiyimiz kimi, belə bir çağırışa verilən cavabın məqsədi aşkardır: bugünkü şəraitdə yalnız intensivləşən və yeni, bəzən daha təkmil formalar kəsb edən beynəlxalq rəqabət mübarizəsində konkret milli iqtisadiyyat üçün üstünlüklər əldə etmək. Başqa sözlə, qloballaşma proseslərinin bu və ya digər formada davam etməsi o deməkdir ki, müasir dünyada qarşılıqlı iqtisadi asılılıq dərəcəsi o həddə çatıb ki, orada yalnız milli iqtisadiyyatı dünya bazarında təmsil edən nailiyyətlərə, yəni ölkənin mövcud iqtisadi üstünlüklərinin reallaşdırılmasına arxalanmaqla layiqli yer tutmaq mümkündür. Bu halda ilk növbədə aktiv ixrac fəaliyyətinin nəticələri, istehsal kooperasiyasını və elmi-texniki kooperasiyanı genişləndirmək imkanları, həm yerli, həm də xarici istehsala və digər layihələrə sərmayə qoyuluşları nəzərdə

tutulur. Bu cür fəaliyyətdən uzaqlaşmaq, hansısa "güvən yeri" axtarmaq, bugünkü reallıq şəraitində qapanıb qalmaq üçün göstərilən hər hansı cəhdlər ölkəni yalnız qlobal inkişafın kənarına çəkə bilər.

## İnnovativ inkişafın sosial tərkib hissəsi

Xarici iqtisadi əlaqələr sahəsində hər hansı davamlı uğurlar yenə də *daxili iqtisadi sabitlikdən,* yəni hazır məhsulun və birbaşa istehsalla bağlı xidmətlərin satışından asılıdır. Bu nə deməkdir? Fikrimizcə, haqqında bəhs etdiyimiz *kəmiyyət xarakterli davamlı inkişaf tempinin* şəksiz əhəmiyyətinə baxmayaraq, belə sabitlik təkcə bunu deyil, əsasən, *bütövlükdə milli iqtisadiyyatın innovativ şəkildə inkişaf etmək qabiliyyətini* nəzərdə tutur.

Beləliklə, ağlabatan bir nəticəyə gələ bilərik ki, bütövlükdə iqtisadiyyatın davamlı artımına, o cümlədən bütün başqa şərtlər bərabər olmaqla və yaranmaqda olan müasir reallıqda qaçılmaz olan xarici təsir nəzərə alınmaqla milli sənayenin tam dirçəldilməsinə və daha da inkişaf etdirilməsinə bu şərtlə nail olmaq mümkündür ki, iqtisadi qarşılıqlı asılılığın innovativ xarakteri təmin olunsun.

Yuxarıda deyilənlərlə əlaqədar olaraq artımın innovativ xarakterini aşağıdakı kimi müəyyən edə bilərik:

- bütövlükdə iqtisadiyyatın və konkret olaraq sənaye sahələrinin hazır innovativ məhsullar istehsal etmək qabiliyyəti;
- innovativ inkişafın qarşıya qoyulmuş ümumi məqsədlərinə uyğun olaraq müasir dövlət daxilində sosial-iqtisadi proseslərin idarə edilməsinin təşkili.

Bununla əlaqədar, rus iqtisadçıları *V.L.Kvint və S.D.Bodrunov* texnoloji dəyişiklik-lərlə cəmiyyətdə baş verən keyfiyyət xarakterli sosial dəyişikliklər arasındakı əlaqəni tədqiq edən *noonomika* konsepsiyasını əsaslandırarkən mühüm bir fikir bildirirlər [5, s.3-4].

Nobel mükafatı laureatı *Edmund Felps* isə daha əvvəl deyirdi: "müasir iqtisadiyyat, əgər onu müəyyən yeniliklər və təzə metodlar icad etmək, yaratmaq və sınaqdan keçirməkdən ibarət geniş və davamlı bir layihə kimi başa düşsək... əməyə və cəmiyyətə dərin təsir göstərmişdir" [6, s.62].

Başqa sözlə, müasir şəraitdə innovativ inkişaf ilk baxışda *sırf iqtisadi* məqsəd və vəzifələrə aid olmasına baxmayaraq, hökmən güclü sosial komponenti ehtiva etməlidir ki, bu da son nəticədə *bütövlükdə cəmiyyətin keyfiyyətcə təkmilləşdiril-məsini nəzərdə tutur*. Və əksinə: bu və ya digər suveren ölkənin əhalisinin ümumi şəraitinin və həyat keyfiyyətinin yaxşılaşdırılması (o cümlədən sosial infrastrukturun

hərtərəfli təkmilləşdirilməsi) özlüyündə çox əhəmiyyətli olmaqla bərabər, *bütün milli iqtisadiyyat miqyasında artımın davamlılığını və innovativliyini təmin etmək üçün mühüm ilkin şərtlərdən biridir.*

Qeyd etdiyimiz sosial infrastruktura gəlincə, onun inkişafı heç bir halda tam *müstəqil*, bütövlükdə dövlətin sosial-iqtisadi inkişafının digər əsas istiqamətlərindən müəyyən mənada təcrid olunmuş şəkildə, məsələn, enerji, nəqliyyat, informasiya və telekommunikasiya infrastrukturu kimi başa düşülməməlidir.

İstehsalın yenidən sənayeləşdirilməsi prosesində onun modernləşdirilməsi məsələlərinə qayıdaraq, prinsipial əhəmiyyətli bir qeyd etməliyik: biz *bütövlükdə iqtisadiyyatımızın yenidən sənayeləşməsindən* danışırıq, çünki sənaye sektorunun səmərəli və həqiqətən davamlı inkişafı yalnız o halda mümkündür ki, eyni vaxtda bütün milli təsərrüfat sistemi aşağıdakı istiqamətlərə yönəlmiş olsun:

- ən müasir əmək alətlərindən istifadə;
- istənilən fəaliyyət sahəsində əmək proseslərinin idarə olunmasının qabaqcıl üsullarından istifadə.

Eyni zamanda, - bir daha vurğulayırıq - iqtisadiyyatın yeni əsaslarla yenidən sənayeləşdirilməsi, onun əsasını təşkil edən ən müasir avadanlıq və yüksək texnologiyalarla yanaşı, sosial inkişaf səviyyəsinin hərtərəfli yüksəldilməsini də eyni dərəcədə ayrılmaz tərkib hissəsi kimi ehtiva edir. Bu səviyyə həm yüksək texnologiyaları yaradanların, həm də müasir dəzgahlarda işləyənlərin intellektual və istehsal imkanlarına birbaşa təsir edir. Burada bir vacib qeyd etməliyik: istehsal proseslərinin və bütövlükdə əmək proseslərinin səmərəli idarə olunması ən müasir informasiya texnologiyalarından fəal istifadə edilməsini nəzərdə tutur, məsələn:

- rəqəmsallaşma imkanları;
- süni intellekt texnologiyaları;
- böyük həcmli məlumatların işlənməsi.

Sadalanan informasiya texnologiyalardan innovativ artımın təmin edilməsi məqsədilə istifadə olunması ilə bu məqalənin əvvəlində bəhs edilən bir neçə onillik bundan əvvəl bu cür texnologiyalara hədsiz *aludəlik* arasında mühüm fərqi vurğu-lamaq lazımdır. O dövrdə "dəbdə olan" texnologiyalara can atmaq bir çox hallarda real sektorda (o cümlədən sənayedə) iqtisadi artımın keyfiyyətcə təkmilləşməsinə *xidmət etmirdi*, üstəlik, o, mahiyyət etibarilə iqtisadi inkişafın real vəzifələrindən *təcrid olunmuş* və bu cür texnologiyalardan əsasən qısa müddətdə böyük gəlir vəd edən qeyri-məhsuldar fəaliyyət növlərini genişləndirmək üçün istifadə edilməsinə istiqa-

mətlənmişdi. Məsələn, yuxarıda qeyd etdiyimiz əyləncə sənayesi bir sıra ölkələrdə çox vaxt tamamilə hipertrofik miqyas almışdı.

Müvafiq olaraq, bu gün haqqında danışdığımız innovativ inkişafın maraqları naminə ən müasir informasiya texnologiyalarının geniş tətbiqi təkcə artım sürətinin kəmiyyətcə artmasına deyil, həm də bütün iqtisadiyyatın yüksək intellektual texnoloji əsasının artmasına birbaşa töhfə verir ki, bu da sosial-iqtisadi inkişafın davamlılığının artmasına kömək edir. Bundan əlavə, müasir şəraitdə iqtisadiyyatın yenidən sənayeləşdirilməsinin mahiyyətini nəzərdən keçirməyə davam edərək, belə bir nəticəyə gələ bilərik ki, o, aşağıdakıları nəzərdə tutur:

- iqtisadiyyatın bütün sfera və sahələrinin əməyin təşkilinin mütərəqqi vasitələri və ən müasir texnika ilə, o cümlədən sosial sahə üçün müxtəlif tipli və müxtəlif təyinatlı avadanlıqlarla təchiz edilməsi;
- bütün fəaliyyət növlərində *əmək prosesinin özünü* texniki və texnoloji təchizatla daha çox təmin etmək.

Yuxarıda göstərilənlər o deməkdir ki, qeyd olunan idarəetmə prosesləri milli iqtisadiyyatda və cəmiyyətdə mövcud olan təbii, maddi, maliyyə və insan resurslarından innovativ istifadənin ümumi mexanizminin tərkib hissəsidir. Nəzərə almaq lazımdır ki, belə bir mexanizmin qurulması bütün *ictimai münasibətlər sisteminin* modernləşdirilməsi məsələlərindən ayrılmazdır, çünki insanla sosial təsisatlar arasında, həmçinin – bu da az əhəmiyyət kəsb etmir – insanların öz arasında münasibətlərin xarakteri təkmilləşdirilmədən müasir iqtisadiyyatda çalışmaq üçün həqiqətən *intellektual cəhətdən hazır olan* qabaqcıl insan resurslarının formalaşdırılması mümkün deyildir.

E.Felpsin xatırlatdığımız fikrinə qayıdaraq qeyd edə bilərik ki, yuxarıda dediklərimiz onun müasir iqtisadiyyatda gedən proseslərin əməyə və cəmiyyətin vəziyyətinə təsiri haqqında gəldiyi qənaətlərə uyğundur. Lakin yadda saxlamaq lazımdır ki, bu cür təsir əslində həmişə mövcud olub, sadəcə olaraq, müasir şəraitdə həmin təsir müstəsna dərəcədə güclüdür; ona görə də innovasiya prosesinin özünün *sosial tərəfini* xatırlatmağın vacibliyini bir daha vurğulamaq istərdik; fikrimizcə, bu halda bir mühüm məqamı dəqiqləşdirmək lazımdır. Sosial aspektlərin ikinci dərəcəli olduğunu düşünmək, hətta onları innovasiyaya əsaslanan davamlı inkişafın *törəməsi* hesab etmək düzgün olmazdı. Əksinə, müasir dünyada əhalinin əvvəllər innovasiya proseslərində iştirak etməyən təbəqələrinin fəallığını artırmaq və onları bu proseslərə cəlb etmək məqsədilə dövlətin güclü sosial siyasəti uzunmüddətli innovativ inkişafın ən mühüm tərkib hissəsinə və hətta müəyyən dərəcədə belə inkişafın təminatçısına çevrilir.

Qeyd edək ki, mütəxəssislər bu əlaqələrə kifayət qədər uzun müddət diqqət yetiriblər. Bununla əlaqədar, xüsusi olaraq qeyd edilmişdir ki, innovativ inkişafın sosial tərkib hissəsinin əhəmiyyətinə bu cür münasibət, məsələn, son vaxtlara qədər dünyanın ən innovativ iqtisadiyyatlarından biri sayılan Almaniyanın iqtisadi və siyasi elitasında dominantlıq təşkil edirdi. Sosial yönümlü bazar iqtisadiyyatı siste-minin əsas elementləri alman mütəxəssislərinin fikrinçə aşağıdakılardan ibarətdir: 1) dövlət tərəfindən yaradılan və tənzimlənən sosial nizam çərçivəsində şəxsiyyətin azadlığı; 2) mülkiyyət, əmlak məsuliyyəti və azad bazar rəqabəti təminatlarına əsaslanan iqtisadiyyatın normal fəaliyyəti üçün şəraitin dövlət tərəfindən formalaşdırılması; 3) *əhalinin həssas təbəqələrini dəstəkləmək məqsədi ilə dövlətin fəal sosial siyasəti* [4, s.72-73].

Müvafiq olaraq, davamlı iqtisadi (yaxud bizim tədqiqatımızla əlaqədar olaraq, *sosial-iqtisadi* desək, daha dəqiq olardı) inkişafın trayektoriyası onun aşağıda sadalanan ən mühüm tərkib hissələrini ehtiva edir:

- vətəndaşların gəlirlərinin artırılmasının təmin edilməsi;
- yaşamaq üçün rahat və təhlükəsiz mühitin (o cümlədən şəhər mühitinin), həyat üçün yuxarıda bəhs edilən zəruri infrastrukturun formalaşdırılması;
- ən yeni rəqəmsal texnologiyalardan istifadə edilməklə səhiyyənin və sosial sferanın digər sahələrinin ilk növbədə ümumi və orta təhsilin (o cümlədən orta ixtisas təhsilinin), mədəniyyət, bədən tərbiyəsi və idmanın prioritet inkişafı;
- ömrün uzunluğunun artması meylinin daimi monitorinqi.

İnnovativ əsasda yenidən sənayeləşmənin ən mühüm istiqaməti - həm fundamental, həm də tətbiqi elmin rolunun daha da artırılmasıdır. Bununla əlaqədar demək olar ki, *"elmlə istehsal arasında əlaqənin möhkəmləndirilməsi"* haqqında bir vaxtlar geniş yayılmış ifadələr indiki şəraitdə yeni məna, geniş və tamamilə konkret məzmun kəsb edir.

Prinsip etibarilə, son onilliklərdə dünya təcrübəsində universitet və laboratoriya elmi ilə bilavasitə istehsal arasında, o cümlədən *ərazi klasterlərinin* formalaşması şəklində sıx əlaqə nümunələri çox olub. İlk növbədə yeni və ən yeni texnologiyaların yaradılması və tətbiqi ilə əlaqədar ən qabaqcıl və bilik tutumlu sahələrdən söhbət gedir. Belə klasterlərin ən tanınmış nümunələrindən biri ABŞ-nin Kaliforniya ştatında bir qrup universitetin və istehsal obyektlərinin cəmləşdiyi məşhur *"Silikon Vadisi"*dir.

"Silikon Vadisi" və bir sıra digər nümunəvi uğurlu layihələr müxtəlif ölkələrdə milli iqtisadiyyatların innovativ yenilənməsi problemlərinin uğurlu həllinə kömək edən ərazi qurumlarının formalaşmasına şərait yaratmışdır. Belə qurumların müxtəlif formaları arasında *biznes-inkubatorların* yaradılmasını və inkişafını xüsusi qeyd etmək lazımdır. Biznes-inkubatorlar çərçivəsində sənaye sahələrində və istehsal

müəssisələrində geniş miqyasda zəruri sınaqlar və innovativ araşdırmaların aparılması üçün əlverişli maliyyə-iqtisadi və texniki-texnoloji mühit formalaşır.

Bütövlükdə dövlətin yenidən sənayeləşdirmə siyasətinin ən mühüm elementi investisiyaların, o cümlədən dövlət investisiyalarının cəlb edilməsi siyasətidir. Eyni zamanda, qabaqcıl sənaye sahələrinə, zərurət yarandıqda isə ayrı-ayrı “seçmə” müəssisə və layihələrə dövlət investisiyaları özəl investorlara münasibətdə effektiv stimullaşdırıcı tədbirlər sistemi ilə dəstəklənməlidir. Bu cür tədbirlər biznes subyektlərinin investisiya fəallığının artırılmasına, ilk növbədə müasir texnikanın tətbiqi və bütövlükdə istehsalın texnoloji baxımdan yeniləşdirilməsi ilə bağlı olan daha bahalı və çox vaxt riskli layihələrə sərmayə qoyuluşlarının həyata keçirilməsinə şərait yaratmalıdır. Sosial əhəmiyyətli layihələr və mühüm sosial yük daşıyan konkret müəssisələr ayrıca seçilməlidir.
Bu cür fəaliyyətin dövlət tərəfindən dəstəklənməsi milli iqtisadiyyatın yenidən sənayeləşdirilməsinin və innovasiyaya əsaslanan davamlı artımın təmin olunmasının ən mühüm şərti hesab edilməlidir.

## Nəticə

Bu gün bir çox ölkələrdə başa düşürlər ki, əgər iqtisadiyyatda, ilk növbədə sənayedə real sektor yüksək dərəcədə inkişaf etməyibsə, onda hətta post-sənaye iqtisadiyyatının inkişafı şəraitində insanın qarşısında açılan ən ambisiyalı məqsədlər və potensial imkanlar əlçatmaz olacaq. Eyni zamanda bu da aydındır ki, söhbət son onilliklərdə itirilmiş istehsal güclərinin və sənaye malları istehsalının həcminin sadəcə bərpa edilməsindən yox, bütün iqtisadiyyatın yeni, innovativ əsasda yenidən sənayeləşdirilməsindən gedir. Bu, təkcə qabaqcıl texnologiyaların yaradılmasını və istehsalını deyil, həm də onların tətbiqi üsullarının xalq təsərrüfatının bütün sahələrinə yayılmasını nəzərdə tutur.

## Ədəbiyyat

1. Azərbaycanın stasistik göstıriciləri. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-Bakı, 2019. S.24; 25
2. Azərbaycanın stasistik göstıriciləri. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-Bakı, 2021. S.34
3. Azərbaycanın stasistik göstıriciləri. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-Bakı, 2024. S.25
4. Гутник В.П. Политика хозяйственного порядка в Германии. – М.: Экономика. – 2002. – С.72-73
5. Квинт В. Л., Бодрунов С. Д. Трансформация общества: стратегия и ноономика. Учебник. – СПб.: ИНИР им. С.Ю.Витте; М.: Центркаталог. – 2024. – С. 3-4
6. Фелпс Э. Массовое процветание: Как низовые инновации стали источников рабочих мест, новых возможностей и изменений. – М.: Институт Гайдара; Фонд «Либеральная миссия». – 2015. – С. 62.